TURKPA
PARLIAMENTARY ASSEMBLY OF TURKIC-SPEAKING COUNTRIES

İqtisadi əməkdaşlıq komissiyası

Tövsiyə qərarı

COM/EC/REC/002 FINAL

**Yeddinci iclas**
**Bakı, 8 aprel, 2019-cu il**

# ORTAQ TEXNOLOGİYANIN İNKİŞAFI: TÜRKPA ÜZV ÖLKƏLƏRİ ELM VƏ İŞ BİRLİKLƏRİ ARASINDA ÇOXTƏRƏFLİ ƏMƏKDAŞLIQ

**Parlament Assambleyası:**

TÜRKPA üzv ölkələri arasında əlverişli iqtisadi əlaqələrin yüksək səviyyəsini və üzv ölkələrin bu sahədə xüsusi əhəmiyyətini ***anlayaraq***;

TÜRKPA üzv ölkələrinin iqtisadiyyatlarında yeni texnologiyaların həyata keçirilməsi və uğurlu tətbiqini ***yüksək qiymətləndirərək***;

TÜRKPA İqtisadi Əməkdaşlıq Komissiyasının 27 sentyabr, 2018-ci ildə Ankarada keçirilmiş 6-cı iclasında nəzərdən keçirilmiş "TÜRKPA üzv ölkələrində innovasiya perspektivləri" mövzusunun əhəmiyyətini ***qeyd edərək***;

Xüsusilə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) 3 sentyabr, 2018-ci ildə Çolpon-Atada keçirilmiş 6-cı Zirvə Görüşünün "milli idman və gənclər sahəsində əməkdaşlıq" mövzusuna həsr edilməsini ***qiymətləndirərək*;**

TÜRKPA üzv ölkələrindən olan Milli Elmlər Akademiyaları və aparıcı universitetlərin araşdırma mərkəzlərinin alimlərinin qarşılıqlı əməkdaşlığını ***yüksək qiymətləndirərək***;

TÜRKPA üzv ölkələri arasında elm sahəsində əlaqələrin gələcək təkmilləşməsi ehtiyacını ***qeyd edərək***;

Tel:+99412 5635835 | Fax:+99412 5635834 | info@turk-pa.org | www.turk-pa.org | /turkpaorg /TURK_PA
Address: 106, S.S Akhundov str., microdistrict 7, AZ1116, Binagadi / Baku / Azerbaijan

Startap və gənc biznes ideyaların dəstəklənməsi, innovasiyalar və yeni texnologiyaların həyata keçirilməsi üçün Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının (UNDP) “ideyadan sahibkarlığa” layihəsini ***təsdiqləyərək***;

Bütün tərəflərə faydalı olacaq əlverişli və səmərəli əsaslar üzərində ortaq mexanizm və təcrübənin yaradılması ilə yeni texnologiyalar üçün elm və sahibkarlığın birləşdirici proseslərinin təkmilləşdirilməsinin davam etdirilməsi ehtiyacını ***nəzərə alaraq***;

Dünya iqtisadiyyatının inkişafında yeni texnologiyalar sahəsində elmi kəşflərin, innovativ ixtiralarda təcrübəsi olan və öz təcrübələrini yeni texnologiyalar sahəsində istifadə edən ölkələrin mühüm rolunu ***qeyd edərək*;**

Üzv ölkələr arasında istehsalda tətbiq olunan yeni və müasir texnologiyalar sahəsində əməkdaşlıq ehtiyacı ***qeyd edərək***;

**Üzv ölkələrin parlamentlərinə tövsiyə edir:**

a) Elmi araşdırmalar və inkişaf işləri üçün xərclərin artırılması, yeni texnologiyaların istehsalda tətbiqi məqsədilə sahibkarlıq müəssisələri üçün əlverişli iqtisadi şəraitin yaradılmasına istiqamətlənmiş həvəsləndirici güzəştli vergi sisteminin yaradılması;

b) Üzv ölkələrin mühəndis texniki heyətinə, eləcə də ali təhsi müəssisələrində elmi araşdırma müəssisələrinin işçilərinə qabaqcıl təlimlərin keçilməsi;

c) Gənc sahibkarlara ilkin fəaliyyət üçün şəraitin yaradılması məqsədilə sahibkarların dəstəklənməsinə istiqamətlənmiş qanunvericiliyin nəzərdən keçirilməsi;

d) Dünya iqtisadiyyatında yeni texnologiyalar tendensiyalarının müzakirəsi və təhlili məqsədilə üzv ölkələrin Milli Elmlər Akademiyalarının innovasiyalarla məşğul olan qurumları arasında təcrübə mübadiləsi və qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi;

e) Üzv ölkələrin innovativ istehsal sahəsində hüquqi çərçivəsinin təkmilləşdirilməsi məqsədilə yüksək texnologiyaların inkişafı mövzusunda təşkil olunan tematik beynəlxalq iqtisadi forumlara TÜRKPA İqtisadi Əməkdaşlıq Komissiyasının üzvləri və müvafiq ekspertlərin göndərilməsi;

f) İnnovasiya sahəsində üzv ölkələrin qanunvericiliklərinin təkmilləşdirilməsi üçün innovasiya və investisiyalarla məşğul olan dövlət qurumlarının əməkdaşları və parlamentlərin müvafiq şöbələrinin ekspertləri arasında müzakirələrin təşkil edilməsi;

g) TÜRKPA üzv ölkələrinin parlamentlərinin kənd təsərrüfatı komitələri arasında əlaqələrin yaradılması və yeni texnoloji kənd təsərrüfatı avadanlığı sahəsində təcrübə mübadiləsi;

h) Bütün yuxarıda qeyd olunan mexanizmlər ümumi investisiya və innovasiya proqramı çərçivəsində və TÜRKPA üzv ölkələrinin dəstəyi ilə nəzərdən keçirilməlidir.